# MÜASİR DÖVRDƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN ELMİ KİTABXANASININ TƏDRİS ƏDƏBİYYATI FONDUNUN FORMALAŞMASI VƏ İNKİŞAFI

**Məmmədova Minaxanım Ənvər qızı**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*
*E-mail:mikamemmedzade95@gmail.com*

***Müasir dövrdə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının tədris ədəbiyyatı fondunun formalaşması və inkişafı***
***Xülasə:*** *Məqalədə BDU-nun Elmi Kitabxanansının tədris ədəbiyyatı fondunun foralaşması və inkişafı ətrafında nəzəri ümumiləşdirmə aparılır. Fondun müasor vəziyyəti şərh edilir, səciyyəvi xüsusiyyətləri təhlil edilir. Məqalədə həmçinin, Tədris ədəbiyyatı fondunun perspektivləri barədə nəzəri fikirlər əks etdirilir.*
***Formation and development of the educational literature fund of the Baku State University Scientific Library***
***Summary:*** *The article provides a theoretical generalization of the formation and development of the educational literature fund of BSU Scientific Library. The foundation's position is interpreted and analyzed by its specific features. The article also contains theoretical views on the prospects of the Teaching Literature Fund.*
***Формирование и развитие фонда учебной литературы Научнойбиблиотеки Бакинского Государственного Университета.***
***Резюме:*** *В статье дается теоретическое обобщение формирования и развития фонда учебной литературы Научной библиотеки БГУ. Положение фонда интерпретируется и анализируется его особенностями. В статье также содержатся теоретические взгляды на перспективы фонда педагогической литературы.*
***Açar sözlər:*** *elm, tədris ədəbiyyatı, elmi kitabxana, fond*
***Ключовые слова:*** *наука, научная литература, учебная библиотека, фонд*
***Key words:*** *science, educational literature, scientificlibrary, fund*

**Giriş**:Məlumdur ki, respublikadakı universitet kitabxanalarının metodik mərkəzi hesab olunan Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının "Komplektləşdirmə və uçot " şöbəsi tədris ədəbiyyatı fondunun komplektləşdirilməsi işi ilə məşğul olur. Məqalədə kitabxananın bu sahədə gördüyü işlər və tədris ədəbiyyatının komplektləşdirilməsi iləbağlı məsələlər geniş şəkildə şərh edilmişdir.

**Məsələnin qoyuluşu**: Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının Komplektləşdirmə və uçot şöbəsinin son illərdə fəaliyyəti zamanı bu sahədə əldə etdiyi nailiyyətlər, kitabxananın iş təcrübəsi, komplektləşdirmə problemləri sahəsində əldə edilən nəticələr onların müsbət və mənfi cəhətləri müəyyənləşdirilmiş, o cümlədən nöqsanlı məqamlara toxunulmuşdur. Hal-hazırda bu şöbənin qarşısında duran vəzifələr və onların yerinə yetirilməsində istiqamətlər verilmişdir. Komplektləşdirmənin həyata keçirilməsi hansı üsullarla həyata keçirilməsi və bu prossesin komplektləşdirmədə nə kimi əhəmiyyətə malik olması şərh edilir.



**Məsələnin izahı:** Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının Komplektləşdirmə şöbəsi tədris ədəbiyyatının komplektəşdirilməsinin sistemli üsulla həyata keçirir. Kompleklşdrmə prossesində ədəbiyyatın komplektləşdirilməsi cari, retrospektiv və prespektiv üsulla komplektləşdirilir. Ədəbiyyatın bu cür komlektləşdirilməsi fonddan istifadə zamanı səmərəli iş prossesini formalaşdırır.

Bildiyimiz kimi 20 aprel 2007-ci il tarixində "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" verilmiş sərəncamda kitabxanaların fəaliyyətində yeniliklər və islahatlar tətbiq edilmiş və bu qərarmövcud kitabxanaların fəaliyyətinə olduqca müsbət təsir göstərmişdir. Elmi Kitabxanaların aparıcı müəssəsi olan Bakı Dövlət Universitetinin Elmi Kitabxanası da bu köklü islahatlardan kənarda qalmamış və bu sahədə perspektivli yeniliklər həyata keçirmişdir. Qeyd etmək lazımdır ki, XXI əsr informasiya əsri olduğunu nəzərə alaraq elm və texnikada, o cümlədən kitabxana işi sahəsində də informasiya texnologiyalarının tətbiqi, daha da inkişaf etməsi, informasiyayönümlü yeniliklər o cümlədən təkmilləşmələrin tətbiqi nəzərə çarpır. Bildiyimiz kimi, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası "Kitabxana işi haqqında Qanun" ilətənzimlənərək dövlət təhsil müəssəsi kitabxanası kimi artıq uzun müddətdirki, fəaliyyət göstərir və daimi olaraq oxucuların xidmətindədir. Son illərdə ölkəmizdə gədən yenidənqurma işləri, kompleksləşdirmə və informasiyalaşdırma prossesləri, telekommunikasiyaların inkişafı, informasiyalaşmış cəmiyyətə keçid eləcədə respublikamızın dünya informasiyalı cəmiyyətlərinə şərait yaratmağa da imkan vermişdir.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının "Komplektləşdirmə və uçot" şöbəsi əsas vəzifə kimi, kitabxananın fonduna daxil olan hər bir ədəbiyyatın o cümlədən sənədlərin dəqiq uçotunu aparır. Elmi kitabxananın ən aparıcı şöbələrindən biri hesab edilən "Komplektləşdirmə və uçot" şöbəsi universitet üzrə illik qəzet və jurnalların abunəsini daimi olaraq təşkil edən şöbə kimi fəaliyyət göstərir. Bundan əlavə "Komplektləşdirmə və uçot" şöbəsinin Elmi fondu müntəzəm olaraq köhnəlmiş və istifadəyə yararsız ədəbiyyatdan təmizlənir vəfonddan çıxarıldıqdan sonra həmin ədəbiyyatın adı dərhal inventar kitabından silinir.

Qeyd etdiyimiz kimi, ən ali universitet hesab edilən Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının "Komplektləşdirmə və uçot" şöbəsinə daxil olan kitablar ilk növbədə texniki cəhətdən işlənməlidir. Fonda daxil edilən bütün tədris ədəbiyyatı uçot kartoçkalarında dərhal qeydiyyata salınır. Tədris ədəbiyyatına daxil olan kitablar inventar kitabına qeydiyyata salındıqdan daha sonra "Kitabişləmə" şöbəsinə təhvil verilir. Elmi Kitabxananın fondunadaxil olan tədrisə dair ədəbiyyat tam şəkildə burada sənədləşdirilir. Qeyd etdiyimiz sənədləşdirmə prossesi başa çatdıqdan sonra isə üç hissədən ibarət ümumi summar uçot adlı kitaba daxil edilmiş hər bir ədəbiyyat qeydiyyata salınır. "Komp-

lektləşdirmə və uçot" şöbəsində hazırlanan summar uçot kitabı aşağıdakı qaydada bölünür:

– Summar ümumi uçot kitabının1-ci hissəsi yəni daxilolma hissəsində, daxil olan tədrisə dair kitabların alındığı hər bir mənbənin adı, mövcud ədəbiyyatın nüsxəsi haqqında məlumat və həmin ədəbiyyatın qiyməti burada qeyd edilir.

– Summar ümumi uçot kitabının 2 – ci fonddan çıxarılma hissəsində isə aktlar vasitəsilə fonddan çıxarılan ədəbiyyatın miqdarı və həmin kitabların məbləği göstərilir.

– Summar ümumi uçot kitabının sonuncu üçüncü hissəsində yekun olaraq fondun hərəkətini yekunlarına dair hər bir məlumat kitabxana fondunda mövcud olan tədris ədəbiyyatına dair sənədlər haqqında son olaarq burada ümumi qeydlər aparılır.

2017-ci tədris ilində Bakı Dövlət Universitetinin professor heyəti həmçinin tələbə-müəllim kontingentinin ölkə daxilindəvə xaricində dövri mətbuatda abunə işinin təşkili ilə əlaqədar olaraq bütün fakültə dekanlarının hər biriilə görüşülmüş, hər bir fakültə dekanı ilə müzakirələr aparılaraq, mövcud məsələləri müzakirə etmiş, bütün ixtisas və profilə uyğun vacib mətbuat orqanının alınmasına dair imzalı təsdiq almışdır. İl ərzində istər tədris ədəbiyyatı ilə bağlı, istərsədə dövrü mətbuatla əlaqədar adı çəkilən şöbəyə dəfələrlə müraciət edilmiş,cari il ərzində 72 nəfər oxucunun sorğusu tam olaraq ödənilmişdir. Lakin onlardan 25 nəfərinin sorğusuna "yox" cavabı verilmişdir.Daha öncəki illərdə olduğu kimi,cari il ərzində də kitabxanaya aşağıdakı qaydada adını çəkdiyimizmənbələrdən kitabxananının fondunamüntəzəm olaraqədəbiyyat daxil edilmişdir:

1. Prezident tərəfindən verilmiş
2. Köçürmə yolu ilə kitabxanaya daxil edilmiş
3. Prezident Aparatı tərəfindənverilmiş
4. Hökümət və qeyri hokümət idarələri və təşkilatları tərəfindən tərəfindən
5. Bakı Dövlət Universitetinin anbarından
6. Mübadilə vasitəsilə
7. Bakı Dövlət Universitetininnəşriyyatı tərəfindən
8. Məcburi nüsxə yolu ilə daxilolma
9. Oxucular tərəfindən itirilən kitablara əvəz kimi fonda daxil edilmiş ədəbiyyat
10. Poçt ilə
11. Müxtəlif müəlliflərtərəfindən kitabxanafonduna hədiyyə edilmişkitablar Qeyd etmək lazımdır ki,bu illər ərzində hədiyyə yolu ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasının fonduna bir sıra idarələr, müəssə, təşkilatlar və o cümlədən müəlliflər tərəfindən fonda ədəbiyyat verilərək kitabxananın fondunun zənginləşdirmişdilər. Azərbaycan Respublikasının Prezidentinin İcra Aparatı (İcra aparatının rəhbəri akad.R.Mehdiyev), Azərbaycan Respublikasının Prezidentinin İlham Əliyevin latın qrafikası ilə



çap edilmiş kitablar, Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar mərkəzi, Təhsil Nazirliyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Problemləri İnsitutu, Azərbaycana Respublikası Ədliyyə Nazirliyi, Azərbaycana Respublikası Statistika Komitəsi, Kooperasiya Universiteti, İqtisad universiteti, Naxçıvan Universiteti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi, Dilçilik İnsitutu, (SAM) Strateji Araşdırmalar Mərkəzi), Dövlət İmtahan Mərkəzi, Azərbaycan prokurorluğu, Azərbaycan Respublikası Neft Fondu, "Azərkitab" nəşriyyat evi, Azərbaycaan Respublikası Neft Fondu, Azərbaycan Respublikası "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, Odlar Yurdu Universiteti, Milli Aerokosmik Agentliyi tərəfindən və o cümlədən başqa müəlliflər tərəfindən xeyli sayda ədəbiyyat nüsxəsi Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının fonduna hədiyyə olaraq təqdim edilmişdir. Hesabatlarla yaxın tanış olduqda il ərzində Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının fondunun əsas tərkib hissələrindən birini təşkil edən tədris ədəbiyyatının ümumi statistik göstəricisi haqqında məlumatı aşağıdakı cədvəldə daha aydın və geniş şəkildə şərhilə tanış olmaq olar:

| **Elm ədəbiyyatı** | **Tədris ədəbiyyatı** | | **Fond** |
|---|---|---|---|
| 1.103 965 | 633 597 | **2016** | **Kitablar** |
| 4464 | 2 871 | **dax** | |
| 9021 | 497 | **çıx** | |
| 10.994.087 | 6 359 712 | **2017 var.** | |
| 224 812 | 130 | **2016** | **Jurnallar** |
| | 1 868 | **dax** | |
| | | **çıx** | |
| 224 812 | 1998 | **2017 var** | |
| 109982 | 1169 | **2016** | **Xüsusi növ (dissertasiya avtoreferatları)** |
| 348 | 713 | **dax** | |
| | | **çıx** | |
| 110330 | 1882 | **2017 var** | |
| 1 438 579 | 634 986 | **2016** | **Cəmi** |
| 4812 | 5452 | **dax** | |
| 9021 | 497 | **çıx** | |
| 1 434 550 | 639581 | **2017 var** | |

Xüsusilə qeyd etmək lazımdır ki Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının "Komplektləşdirmə və uçot" şöbəsinin tədris ədəbiyyatı ilə bağlı

fəaliyyət dövrünün son 3 ili bu cədvəldə nəzərə alınmışdır. Qeyd etmək lazımdır ki, universitetinin fonduna daxil edilmiş ədəbiyyatın aşağıdakı qaydada "Elmi ədəbiyyat" üzrə , "Tədris ədəbiyyatı", "Bütünlükdə hərəkət edən fond", "Xarici dildə ədəbiyyat", "Mübadilə fondu", "Bütünlükdə kitabxananın fondu" kimi bölüşdürələrək qeyd edilir.

Bakı Dövlət Universiteti hər zaman ali məktəb kitabxanalarının aparıcı müəssəsi kimi kitabxana fondunun ehtiyatlarınının tərkib hissəsinin daimazənginləşməsində tədris ədəbiyyatını hər zaman ön plana çəkmiş və tədris ədəbiyyatının fonda daxil edilməsində mütərrəqi olaraq iş fəaliyyəti aparmışdır. Cədvəldən də aydıngöründüyü kimi, kitabxananın əsas bazasını təşkil edən elmi ədəbiyyat 1 103 965 sayda olduğu halda, 2017 ci ildə artıq ədəbiyyatın sayı 10 994 887 yə çatmışdır, jurnalların sayı 224 882 yə çatmışdır,110330 sayda xüsusi növ avtoreferat və dissertasiyalar elmi kitabxananın fondunun bazasına daxil edilmişdir. Elmi kitabaxananın bazasına daxil edilən elmi ədəbiyyyatın cəmi 1 434 550 yə çatmışdır. Tədris ədəbiyyatının komplektləşdirilməsi zamanı hesabatlara nəzər saldıqda görürürük ki, kitabların sayı 6 359 712 yə çatdırılmış, 1998 addaisə jurnal qeydə alınmışdır. Xüsusi növ dissertasiya və aftorfeferatların sayı 1882-ə çatmışdır. 2017 ci ildə ümumi olaraq daxil edilmiş və fonndan əddəbiyyat çıxarıldıqdan sonra 639 581adda tədris ədəbiyyatı elmi kitabxananın fondunda mövcud olmuşdur.

Son olaraq qeyd etmək lazımdır ki, Universitetin Elmi Kitabxansının "Komplektləşdirmə və Uçot" şöbəsinin əməkdaşları yaxın gələcəkdə dəverilmiş sərəncama və islahatlara əsasən bir sıra məsələlərin həll edilməsində birlikdə səy göstərməli və daim olaraq kitabxana işinin dinamik fəaliyyətini tənzimlənməsinə istiqamətləndirməlidirlər.

**Ədəbiyyat**

1. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında:Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı //Azərbaycan.- 2007 . 21 aprel
2. Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının hesabatları
3. Xələfov A.A.Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində:Monoqrafiya.-B:Bakı Dövlət Universiteti Nəşriyyatı, 2009- 210 s.
4. Xələfov A.A.,Qurbanov A. İ. :Kitabxanalarin komputerləşdirilməsinin əsasları :Dərslik.-B.-Bakı Universiteti Nəşriyyatı,2007.-200 s.
5. İsmayılov X.İ. Kitabxana informasiya texnologiyaları 6 Dərs vəsaiti .-B.: Nurlan,2009.-312 s.
6. Rüstəmov Ə.,Musatafayeva N. Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması // Kitabxanaşünaslıq və bibliqorafiya.-2007.-№2.-s.15-27